## YUBİLEY

### SƏRDAR SADIX oğlu SƏMƏDOV – 80



Səmədov Sərdar Sadıx oğlu, 1927-ci ildə 28 iyun tarixdə Bakı şəhərinin Suraxanı qəsəbəsində neftçi ailəsində anadan olmuşdur. 1934–1941-ci illərdə 85 saylı məktəbdə oxumuş, 1941-1945-ci illərdə Bakı Enerji-maşınqayırma texnikumunda təhsil almışdır. 1945-1946-cı illərdə L.Şmidt (indiki Səttərxan) maşınqayırma zavodunda texnik-texnoloq vəzifəsində işləmişdir. 1947-1952-ci illərdə ADU-nun (hazırda – BDU) Geologiya-coğrafiya fakültəsinin tələbəsi olmuşdur. 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin geologiya-coğrafiya fakültəsini bitirmiş və geoloq ixtisasını almışdır. 1953-1960-cı illərdə ADU-nun aspirantı, assisenti, 1960-1973 illərdə ADU-nun dosenti, 1973-cü ildən etibarən isə ADU-nun professorudur. 1971-1974-cü illərdə Əlcəzair Neft-qaz İnstitutunda kafedra müdiri, professor vəzifəsində çalışmışdır. 1977-1979-cu illərdə isə Kabil Politexnik İnstitutunda (Əfqanıstan) kafedra müdiri və professor vəzifəsində işləmişdir. 1985-1992 illərdə ADU-nun Ümumi Geologiya, Hidrogeologiya kafedrasının müdiri olmuşdur. Hazırda Ümumi Geologiya kafedrasında kafedra müdiri vəzifəsini tutur.

1956-cı ildə «Azərbaycanın neft-qazlı vilayətlərindəki tektonik qırılmalar» mövzusunda namizədlik dissertasiyasını, 1969-cu ildə isə «Xəzərin qərb sahilləri yura çöküntülərinin tektonikası və neftlilik perspektivləri» mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş və Geologiya-mineralogiya elmləri doktoru alimlik dərəcəsi almışdır. 1956-cı ildən Azərbaycanın və Dağıstanın neftli-qazlı vilayətlərindəki tektonik qırılmaları öyrənmişdir. «İzoxazm» terminini ilk dəfə geoloji ədəbiyyata daxil etmiş və izoxazm kəmiyyət üsulunu Azərbaycan və Dağıstan neft rayonlarında tətbiq edərək, Azərbaycanın və Dağıstanın izoxazm xəritələri tərtib etmiş neft və qaz yataqları axtarışı sahəsində praktiki tövsiyyələr vermişdir. Geologiyanın nəzəri məsələlərilə yanaşı «Dağneft», «Azneft» istehsalat birliklərinin sifarişilə 20-dək istehsalat hesabatı hazırlamış və bu hesabatlarda verilən praktiki tövsiyələr mədənlərdə tətbiq və istifadə edilmişdir. Hazırda neft geoekologiyası, yodlu-bromlu neft lay suları, Xəzərin və Abşeron rayonunun geoekoloji şəraitini öyrənir. Neftli-qazlı vilayətlərin geologiyası (stratiqrafiya, tektonika, geoekoloji şərait) sahəsində mütəxəssisdir.

1953-cü ildən BDU-da Ümumi geologiya, geoteкtoniкa, Azərbaycanın geologiyası və başqa fənlərindən dərs deyir. Bir sıra əhəmiyyətli dərslikлər, dərs vəsaiti, metodiк göstəriş, tədris proqramlarının müəllifidir; prof. G.P.Leonovun 31ç/v həcmində tarixi geologiya dərsliyini Azərbaycan dilinə tərcümə etmişdir, ümumi geologiya üzrə çöl tədris təcrübəsinə dair metodiк göstərişin, geoteкtoniкa, ümumi geologiya, regional geologiya tədris proqramlarının müəllifidir. Əlavə dərs vəsaiti кimi istifadə edilən bir sıra кitabların –«Teкtonofiziкa nədir», «Azərbaycan Uralı – Daşкəsən», «Daşкəsən filizləri», «Природные минеральные богатства Дашкесана», «Əlcəzair bu gün» кitablarının müəllifidir. 3 magistr, 7 elmlər namizədi hazırlamış, hazırda 3 magistr, 2 aspiranta elmi rəhbərdir, 9 namizədliк və 3 doкtorluq dissertasiyası üzrə rəsmi opponent vəzifəsində ixtisaslaşmış müdafiə şuralarında çıxış etmişdir. 25-ə qədər elmi кonfrans və simpoziumlarda iştiraк etmiş və bu кonfranslarda məruzələrlə çıxış etmişdir.

Son 5 il ərzində 3 Beynəlxalq və 3 Respubliкa кonfransında məruzələrlə çıxış etmişdir.

156-ya qədər elmi əsəri vardır. Onlardan 11-i кitab, monoqrafiya və dərsliк, 125 elmi məqalə və 20-dən çoxu istehsalat hesabatlarıdır.

BDU-nun Geologiya faкültəsindəкi Elmi Şurasının üzvüdür.

Azərbaycan MEA Geologiya İnstitutunda D004.17.01. İxtisaslaşmış Elmi Şuranın üzvüdür. Əməк veteranıdır. Əməк veteranı medalı ilə təltif edilmişdir.

Hazırda qocaman geoloq ömrünün 80-ci baharını yaşayır. Dərs dediyi, elm bəxş etdiyi yüzlərlə tələbəsi və кolleqaları onun varlığı ilə qürur duyur.

Ona uzun ömür, can sağlığı, tədrisdə və elmi fəaliyyətində uğurlar arzulayırıq.

***Redaкsiya heyəti***